AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 14/3

Bakı şəhəri 18 noyabr 2016-cı il

“Azərbaycan Elminin İnkişaf Doktrinası”nın
layihəsi haqqında

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə elmin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələri və irəli sürdüyü elmi prioritetləri rəhbər tutaraq AMEA-nın Ümumi yığıncağı 29 aprel 2016-cı il tarixində “Azərbaycan Elminin İnkişaf Doktrinası”nın hazırlanması barədə qərar qəbul etmişdir. AMEA-nın Rəyasət Heyəti tərəfindən həmin Doktrinanın layihəsi hazırlanmışdır. Layihədə mövcud elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsi, elmin idarə edilməsi, təşkili və maliyyələşdirilməsi sistemlərinin təkmilləşdirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, elmi tədqiqatların prioritetlərinin ölkənin sosial-iqtisadi, mədəni-ictimai problemlərinin həllinə yönəldilməsi, elmlə təhsilin inteqrasiyası, elmin normativ-hüquqi bazasının və informasiya təminatının gücləndirilməsi, elmi işçilərin sosial təminatının yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

“Azərbaycan Elminin İnkişaf Doktrinası”nın layihəsi Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının 12 iyul 2016-cı il tarixli iclasında geniş müzakirə olunmuşdur. Əlaqələndirmə Şurasının üzvlərinin təklif və tövsiyələri nəzərə alınmaqla layihə yenidən işlənilmiş və razılaşdırılması üçün müvafiq nazirliklərə təqdim olunmuşdur. Nazirliklər tərəfindən təqdim olunan rəy və təkliflər də Doktrinanın layihəsində nəzərə alınmışdır.

“Azərbaycan Elminin İnkişaf Doktrinası”nın layihəsini müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. “Azərbaycan Elminin İnkişaf Doktrinası”nın layihəsi bəyənilsin (əlavə olunur).
2. “Azərbaycan Elminin İnkişaf Doktrinası”nın layihəsi təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev